

*Fəxrəddin Teyyub*

# Köhnə kişiyə məktub

**Mərdəkanda məndən bir az aralıda, "Xəzər" market tərəfdə bir köhnə kişi yaşayır. Əslində yaşamır... yaşamağa cəhd edir. Çünki ruhu əsirdi Füzulidə. Yəqin tanıyırsınız, "Qızıl teşt"in, "Nekroloq"un, "Daş evlər"in, "İt intervyüsü"nün və digər maraqlı əsərlərin müəllifi Seyran Səxavəti deyirəm. Hələ gənclik illərində əvvəlcə şeirlərini, sonra isə nəsr əsərlərini sevə-sevə oxuyurdum.**

Bu istedadlı yazıçı haqqında bir yazı yazmaq fikrinə düşmüşdüm. Hətta zəng edib istəyimi ona bildirəndə bir az duruxdu, haçandan-haçana, - belə bir arzu ürəyindən keçirsə, nə deyə bilərəm, Allah xeyirini versin, - dedi.

Özümü əməlli-başlı işə salmışdım. Elə bil içimdə ocaq qalanmış və o ocağın odundan qalxan ilğım ruhuma sarılmışdı. Adama deyərlər ki, çayı hoppanmamış niyə "hop" eləyirsən?!. Sakitcə yazını yaz, qəzetlərin birində çap elətdir, olsun iş! Axı yarım əsrdən artıqdır ki, bu böyük qələm sahibi haqqında hörmətli qələm adamları dəyərli yazılar yazmış və onun yazdığı əsərləri ustalıqla təhlil edib, fikirlərini bildirmişdilər. Mən təzə nə deyəcəkdim ki... Ona görə çox düşünüb, götür-qoy edəndən sonra belə bir qənaətə gəldim ki, Seyran müəllimin söz tərəfini yox, onun görünməyən tərəfləri haqqında fikirlərimi hörmətli oxucularla paylaşım. Dostum, qız qardaşım, bacım, məşhur "Təndir", "Daş yonanla söhbət" şeirinin müəllifi Fərqanə Mehdiyeva mənə zəng elədi, dedi ki, şairə Arzu Nehrəmlinin Mahnı Teatrında yaradıcılıq gecəsi keçiriləcək, vaxtın olsa, iştirak eləsən pis olmaz - dedi. Böyük məmnuniyyətlə gələrəm, - dedim. Ömür-gün yoldaşı Qarabağ uğrunda döyüşlərdə həlak olmuş bu zərif qadının qüruru və çoxlarına qeyrətdən dərs keçməsi ürəyimi həmişə dağa döndərib. Bu şəhid xanımına sonralar bir şeir də həsr etmişəm.

Zala daxil olanda arxa sırada Seyran Səxavətin tək-tənha əyləşdiyini gördüm və bir anlıq mənə elə gəldi ki, Seyran müəllim sağ tərəfindəki o boş yeri mənim üçün saxlayıb. Bəzən yaşımla bağlı yer söhbətlərinin artıq bitdiyi düşüncəsindəyəm. Mənə daha çox səmavi söhbətlər maraqlı və inandırıcı görünür. Ümumiyyətlə, mənim təsadüf sözündən xoşum gəlmir. Bu sözün lüğətimizə düşməsi mübahisə predmetidir. Alın yazısı var və insan dünyaya göz açıb "inqə" deyəndən, ta ömrünün axırına kimi Allah-Taalanın insanın alnına yazdığı yazıya yol gedir.

Sakitcə yaxınlaşıb salam verdim. Oturmaq istədiyimi hiss edib, başıyla otur işarəsini verdi. Keyfini soruşdum,- Hamının keyfi kimi, - dedi. Seyran Səxavətlə münasibətimizin himi hələ 70-ci illərin əvvəllərində qoyulmuşdu. Mən o illərə "bəxtəvər illər" deyirəm. İnsanların bir-birinə sevgisi, hörməti qeyd-şərtsiz və təmənnasız idi. hamı bir-birinin uğuruna sevinirdi. Adamların üzündən təbəssüm əskik olmurdu. Qonaq gedirdilər, qonaq çağırırdılar. Ədəbi dərnəklərdə şeirlər oxunardı və ustadlar oxunan şeirlərə qiymət verərdilər. Dənizkənarı bulvarda Seyran müəllimə o qədər şeir oxuyub, zəhləsini tökmüşəm ki...



Düzdü, Yazıçılar Birliyinin "Natəvan" adına klubunda üçüncü kitabımın təqdimatında, giriş sözündə mən Fəxrəddin Teyyubu altı aya yaxındır ki, tanıyıram desə də, onun bu unutqanlığını böyüklüyünə bağışlamışdım. Mənim bu bağışlamaq məsələsinə xüsusi münasibətim var. Birincisi, ulu Tanrı bağışlayandısa, biz kimik? İkincisi, rəhmətlik anam deyərdi ki, bala, heç vaxt böyüyün üzünə qayıtma və çalış hamını yola ver. Anamın tövsiyəsinə nə qədər əməl etdiyimi, məni tanıyanlar məndən yaxşı bilir. Qonşum, mərhum jurnalist, gözəl publisist Ağaddin Mansurzadənin qardaşı, hüquqşünas, gözəl qəlb sahibi Şəmsəddin Əliyev Yazıçılar Birliyinə üzv olmaq istəyirdi. Hər dəfə görüşəndə deyirdim ki, Allah kərimdi. Nəhayət uca Tanrının göstərdiyi yerdə oturmuşdum. Arzumu Seyran müəllimə bildirdim. Ağəddin müəllimlə Masallıda, dədə-baba evində duz-çörək kəsmişəm. Onunla o qədər araq içmişəm ki... kömək eləyərik, - dedi. Sevincimin həddi-hüdudu yox idi. yenə rəhmətlik anamın gözəl bir sözü yadıma düşdü. Deyirdi ki, çalışın, yaxşılıq etmək üçün səhər o başdan durun, pislik məqamə gələndə yatıb qalın. Elə duyğulanmışdım ki, nə vaxtsa yaddaşımda ilişib qalan bir atalar sözü yadıma düşdü: Kişilər ölər, kişilik ölməz.

Seyran müəllimlə əməlli-başlı doğmalaşmışdıq. Bir gün istedadlı şair Əşrəf Veysəllinin 80 illiyi ilə bağlı Sumqayıtda poeziya evində keçirilən bir tədbirə qatıldıq. Möhtəşəm bir tədbir idi. Mənim Əşrəf Veysəlliyə böyük hörmətim var. Bu hörmətin mayası onun gözəl şair olmağıdı. Ona həsr etdiyim şeiri Seyran müəllimin üzgörənliyi ilə oxudum. Ona görə üz görənliyi ilə deyirəm ki, orda çıxış etmək istəyənlər çox idi və mənə elə gəldi ki, kiminsə haqqına girdim. Tədbirdən sonra Əşrəf müəllim qonaqlar üçün açıq havada gözəl bir məclis təşkil etmişdi. Məclisdə Seyran müəllimlə uzun illər mühüm dövlət postunda çalışan, indi isə təqaüddə olan bir məmurun qəribə dialoqunun şahidi oldum. Məmur özünəməxsus görkəm alaraq danışırdı. Bəzən adamın ürəyinə o qədər söz olur ki, danışa bilmirsən. Ürək dolandan sonra adamın qarnı da dolur. Düşürsən sancıya, olursan hamilə qadın kimi. Heç bilmirsən neyləyəsən.

Seyran müəllimin rəngi qaraldı: Kişi deyilsən?, - dedi, - sözünü de də!.. yaxşı indi nə deyirsən, sənin üçün neyləyim, aparıb səni abort elətdirim?

Məmurun nə hala düşdüyünü sözlə ifadə etmək çox çətindi. Bircə qızarmış sifəti yadımda qaldı. Çünki kiminlə danışdığını unutmuşdu.

Seyran Səxavətin sözü şappıltı ilə çoxlarının üzünə vurmasının dəfələrlə şahidi olmuşam. Bizim kənddə sözü üzə deyən adamlara "qırmızı adam" deyərdilər. Ömrüm boyu baş sındırıb bir yana çıxa bilməmişəm, axı sözü üzə deyənlər niyə qırmızı adam olur? Söz elə adamın üzünə deyilməlidi də...

Bilgəh sanatoriyasının həyətində gəzişirdik. Birdən pilləkənləri qalxanda qolumdan tutub, - Ayaqlarım ağrıyır, bir dayan, - dedi. Nədənsə mənə elə gəldi ki, yurdu yağmalanmış bu göy adamının heç vaxt ayaqları olmayıb. Qanadları olub, ömrü boyu uçub. İndi də uçur. Hələ neçə min illər də uçacaq. Seyran Səxavət bütün ruhuyla, dilinin təmizliyi, zənginliyi, etniklərə sayqısıyla, hamını bir gözdə görməsinə rəğmən pak, ülvi və qərəzsiz bir Azərbaycan kişisidir. Bu adam üçün bölgə, region söhbəti yoxdur, yaxşı insan var. Özünün təbirincə desək, o qədər safdı ki, dibi görünür, yəni özüdü. Aysberq-zad deyil.

Yay axşamlarından biri idi. seyran müəllim zəng edib, Mərdəkanda yerləşən "Görüş" kafesində çay dəstgahı açdığını dedi. Kitabımı oxuyub təəsirləndiyini və bu kitabı "yumaq" istədiyini bildirdi.

Görüşdük. Şeirlərimin xoşuna gəldiyini dedi. Söhbət əsnasında Fəxrəddin adında qardaşını itirdiyini deyəndə kövrəldim. Bu gündən sənə Faxı deyəcəm, eyzən qardaşımı çağıran kimi.

**Bu yazı bir az gecikirdi. Mənim düşüncəmə görə xeyli əvvəl işıq üzü görməliydi. Ancaq elə bir hadisə baş verdi ki, qeyri-müəyyən vaxta təxirə salmalı oldum. Səbəbi yəqin sizin üçün də maraqlı olar. Bir gün bağda ağacları sulayırdım. Telefonuma zəng gəldi. Seyran müəllim idi. Vaxtın varsa, gedək bir çay içək, - dedi. Niyə yoxdur, var dedim. Bu qənimət adamla nəinki çay içmək, toyda, yasda görünməyin özü bir şərəfdi. Onu da deyim ki, mən Seyran müəllimlə həmişə ehtiyatla davranıram. Daha doğrusu, söz deyəndə yüz ölçüb, bir biçirəm. Bir gülməli əhvalatı yadına salıb Seyran müəllimə desən ki, səni bir güldürüm, gözlədiyin bir cavabla başbaşa qalacaqsan, yəni sənə deyə bilər ki, bəlkə mən gülmək istəmirəm! Ona görə də çox zaman onu dinləyir və susmağa üstünlük verirəm. Bu dəfə də həmişəki missiyamı yerinə yetirirdim. Birdən üzünü mənə tutub, Faxı, mənə irad tuturlar ki, Fəxrəddin Teyyub niyə sənə Seyran müəllim yox, Seyran deyir? Birdən tutuldum. Elə bil qulağımın dibinə möhkəm bir şillə vurulmuşdu. Özümü ələ aldım, neynək, bugündən Seyran müəllim deyərəm, - dedim. Ürəyimdə incidim. Küsdüm. Deyə bilmədim ki, axı mənə deyirdin qardaşım Faxının yerində görürəm səni! Necə olur ki, mən Seyran deyəndə tərəzinin gözü qaçır, pərsəngi pozulur? Hər şeyi zamanın öhdəsinə buraxdım. Bu il fevralın 12-də adəti üzrə zəng edib əhvalını soruşdum. Həmişəki əhval-ruhiyyəsində idi. Dedi, alə, mənim haqqımda yazı yazacaqdın, nə bilim qonaqlıq verəcəkdin, nə oldu bəs? Belə birtəhər olmusan ey... son zamanlar. Bir az özünə gəl! İncimə e... dediklərimdən, sən qabaqlar belə deyildin. Haqq etmədiyim iradları üzümə çırpmışdı. Əsl məqam idi. ondan incidiyimi telefonda, ya da görüşəndə bildirməyi düzgün hesab eləmədim. Düşündüm ki, ən gözəl çıxış yolu bu köhnə kişiyə bir məktub yazmaqdı. Söz verdim ki, vədimə əməl edəcəyəm. Yazımı yazdım. O ki qaldı qonaqlığa, onu da onun ad günündə verəcəyəm, martın 23-də. Ömür vəfa eləsə...**